**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

Bakı şəhəri № 232/5 5 iyun 2012-ci il

Auditorlar Palatasının 2012-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "2012-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikin hazırlanması barədə" 4.1-ci və 14-cü müvafiq bəndlərinin icrası ilə əlaqədar Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsi (S.Gülməmmədov) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış layihələri və Şura üzvlərinin təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "Auditorlar Palatasının 2012-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı və qrafiki" təsdiq edilsin (əlavə olunur).
2. Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, təsdiq olunmuş həmin sənədlər üzrə 2012-ci ildə auditorların, o cümlədən auditor fəaliyyəti ilə məşğul olmaq hüququnu verən xüsusi razılığı (lisenziyanı) müvəqqəti olaraq Palataya qaytaran şəxslərin, habelə auditor adı almaq üçün imtahanı müvəffəq vermiş və xüsusi razılığı (lisenziyanı) almamış şəxslərin Palata tərəfindən cari ildə keçiriləcək ixtisasartırma kurslarında iştirak etmələri ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi təmin edilsin.
3. Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, təsdiq edilmiş "Auditorlar Palatasının 2012-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafiki"nin Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**